Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu

# Azərbaycan-Tatarıstan işgüzar görüş keçirilib

Image not readable or empty
/uploads/images/news/1f6f322c52aade8386acf25115c76478_600x500-resize_crop-2607.jpg

Sentyabrın 13-də Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Tatarıstan işgüzar görüş keçirilib. Görüşdə hər iki tərəfdən tikinti, yaşıllaşdırma, kimya məhsullarının istehsalı, təhsil, turizm sahələrində fəaliyyət göstərən 30-a yaxın şirkətin nümayəndəsi iştirak edib. Tədbir çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər keçirilib, ixrac məsələləri müzakirə edilib.